**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**HÜSEYİN MUZAFFER OĞLU KARAHAN**

# XIX ƏSRİN II YARISINDA AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏDƏBİYYATLARINDA MAARİFÇİ-ƏDƏBİ HƏRƏKATIN TARİXİ-MÜQAYİSƏLİ TƏDQİQİ

5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid
5717.01 – Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

**Tədqiqat işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbərlər:** filologiya üzrə elmlər doktoru, professor
**Asif Abbas oğlu Hacıyev**

filologiya üzrə elmlər doktoru, professor
**Mehmet Törenek**

**Rəsmi opponentlər:** filologiya üzrə elmlər doktoru, professor
**Zemfira İsmayıl qızı Rüstəmova**

filologiya üzrə elmlər doktoru
**Firuzə Abdulla qızı Ağayeva**

**Aparıcı təşkilat:** AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi və Türk xalqları ədəbiyyatı şöbələri

Müdafiə "_24__" "__02__" 2016-cı il saat "_____" Bakı Slavyan Universitetinin nəzdində filologiya üzrə elmlər doktoru və filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.071 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1014, Bakı şəhəri, S. Rüstəm küç., 25.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat " ___" " __________" 2016-cı ildə göndərilmişdir.

D.02.071 Dissertasiya Şurasının Elmi katibi
filologiya üzrə fəlsəfə doktoru, dosent **N.R.MUQİMOVA**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XVIII əsrin Avropa maarifçiliyi öz kökünü XI-XII əsrlərin Şərq intibahından götürür. XI-XII əsr Şərq intibahı, eləcə də burada baş verən yeniliklər, daha sonra XIV və XVI əsr Avropa intibahına təkan verir. Avropa intibahından sonra da XVIII əsrdə maarifçilik hərəkatı başlayır. Tarixi-mənəvi və intellektual prosesin davamçıları olan maarifçilər "Günəş şəhəri" yaratmaq arzusu ilə yaşayan utopistlərdən fərqlənərək həyata real nəzərlərlə baxır, yeni bir cəmiyyət, yeni bir həyat qurmaq istəyirdilər. Onlar elmə, biliyə can atır, daxili, mənəvi keyfiyyətlərin zənginləşməsinə, əxlaqi davranış normalarına əməl olunmasına və düzgün tərbiyənin verilməsinə çalışırdılar. Avropanın bir çox ölkələrində maarifçilər oyanan milli şüuru öz fəlsəfi, elmi və bədii əsərləri ilə ifadə edirdilər.

Şübhəsiz ki, maarifçilik işığı XIX əsrdə qədim dövrlərdən bəri dost və qardaş olan Türkiyə və Azərbaycandan da yan keçə bilməzdi. Bu gün istər Azərbaycanda, istərsə də Türkiyədə Azərbaycan-Türkiyə əlaqələri həmişə gündəmdə olan əsas məsələlərdən biridir. Bunlar, tarixi, iqtisadi, siyasi, sosial-mədəni və türkçülük əlaqələri olaraq hesab edilmiş və müxtəlif dövrlərdə bir çox elmi monoqrafiya, məqalə, dissertasiyalarda tədqiq olunmuşdur. Ancaq bir-biri ilə bu qədər əlaqəsi olan hər iki xalqın, inkişafında çox vacib rol oynayan maarifçi-ədəbi hərəkatın qarşılıqlı olaraq ayrıca tədqiqatı aparılmamışdır. Əlbəttə ki, maarifçi ədəbi hərəkat hər iki ölkənin istiqbalını birbaşa təsdiqləyən böyük bir həqiqətdir. Bu xüsusilə XIX əsrin II yarısına aid edilir. O dövrlərdə Azərbaycan rus elmi fikri və fəlsəfəsinin təsirində olmasına baxmayaraq, Azərbaycan və Türkiyə maarifçi-ədəbi hərəkatlarının tarixi, coğrafi, fəlsəfi, din, dil, soy-kökü kimi bir çox ümumi cəhətlərindən söz açmaq olar. Bütün bu qeyd etdiyimiz amillərin işığında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi-ədəbi hərəkatın müqayisəli tədqiqi mövzunun aktuallığını bir daha sübut edir.

XIX əsirdə Türkiyədə Tənzimat islahatları (1839) ilə başlayan maarifçilik (aydınlanma) XIX əsrin II yarısında daha da genişləndi və həyatın bütün sahələrinə nüfuz etdi. Bu mərhələdə Türkiyədə siyasi təşkilatlarla yanaşı meydana gələn bir sıra ədəbi cəmiyyətlər, ədəbi cərəyanlar maarifçi ideyaların təbliğində öz sözünü dedi. Yeni ideyaları İ.Şinasi, N.Kamal, T.Fikrət, Z.Paşa kimi bir sıra ziyalıların ictimai-ədəbi fəaliyyətində görmək mümkün oldu. Onlar eyni zamanda Azərbaycan maarifçi-ədəbi hərəkatını

diqqətlə izləyirdilər. Məsələn, Namiq Kamal Mirzə Fətəli Axundzadənin yaradıcılığını alqışlayır və onun əlifba islahatını Türk xalqlarının savadlanmasında gələcəyə açılan yol hesab edirdi.

Dünyanı bürümüş yeniliklər, islahatlar Azərbaycanda maarifçilik ideyalarına da öz təsirini göstərdi. İqtisadiyyatın tədricən inkişafı, yeni burjuaziyanın yaranması elmin və təhsilin inkişafını tələb edir, ölkənin gələcəkdə inkişaf etmiş bir sənaye ölkəsinə çevrilməsini zəruriləşdirirdi. Feodal qaydalarının dağılmağa başlaması, Azərbaycanın kapitalist inkişaf yoluna düşməsi, ölkənin ictimai-siyasi həyatında baş verən digər dəyişikliklər A.Bakıxanov, X.Natəvan, Q.Zakir, M.Ş.Vazeh, M.F.Axundzadə, S.Ə.Şirvani, Ə.Haqverdiyev, N.Vəzirov kimi görkəmli simaların elmi, bədii və fəlsəfi yaradıcılığında da öz əksini tapdı. Türk dünyasında ilk dəfə olaraq Əlifba islahatına cəhd edildi. M.F.Axundzadə 1863-cü ildə Əlifba islahatı ilə bağlı layihəsini İstanbula gedərək Sədrəzəm Fuad Paşaya təqdim etmişdi. Bu layihə müxtəlif səbəblər irəli sürülərək qəbul olunmasa da, ondan 65 il sonra 1 noyabr 1928-ci ildə Mustafa Kamal Atatürk Türkiyəsində yüksək qiymətləndirilərək Türk Əlifbasının əsasını təşkil etdi.

Azərbaycanda milliyyətçilik düşüncəsinin oyanmasında mühüm rol oynayan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi türkçü ziyalıları yetişdi ki, bu insanların hər ikisi sonradan talelərini Türkiyə ilə bağladılar. Türk maarifçilik ideyaları ilə tanışlıq Azərbaycanda milli özünüdərk prosesini gücləndirdi. Milli ideologiyanın oyanışı “Türklər kimdir və kimlərdən ibarətdir” sualını ortaya qoydu.

Buna Əli bəy Hüseynzadənin “bizə fədai lazımdır: türk hissiyyatlı, islam etiqadlı, Avropa qiyafəli fədai!" fikri cavab olaraq ortaya çıxdı. Bu fikir və tələbatın davamı və nəticəsi kimi Şərqdə ilk dəfə müstəqil türk dövləti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti, ondan 5 il sonra 1923-cü ildə Türkiyə Cümhuriyyəti yaradıldı.

Dissertasiyada Avropa və Şərq maarifçiliyi haqqında məlumat verilməklə yanaşı, M.Ş.Vazeh, A.A.Bakıxanov, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, İ.Şinasi, N.Kamal, Z.Paşa, T.Fikrət kimi ədiblərin ədəbi-bədii islahatçı fikirləri təhlil edilmişdir. Azərbaycanda və Türkiyədə milli mətbuatın yaradılması məsələləri, “Əkinçi” və “Sərvət-i-Fünun” jurnallarının fəaliyyəti, onların öz ölkələrinin milli-mənəvi tarixində göstərdikləri əvəzsiz xidmətlər qarşılıqlı müqayisə edilərək işıqlandırılmışdır.

Tədqiqat işində qoyulan məsələnin aktuallığı və ilk dəfə araşdırıldığı nəzərə alınaraq, onun mövzusu "XIX əsrin II yarısında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi ədəbi hərəkatın tarixi-müqayisəli tədqiqi" kimi götürülmüşdür.

**Tədqiqatın obyekti** XIX əsrin II yarısında Azərbaycan və Türkiyədə maarifçi-ədəbi hərəkatı və bu hərəkatın nümayəndələri, "Əkinçi" və "Sərvət-i-Fünun" jurnallarıdır.

**Tədqiqatın predmeti** XIX əsrin II yarısında Azərbaycanda və Türkiyədə maarifçilik ədəbi hərəkatının inkişaf mərhələləri, vəziyyəti, bu hərəkatı yaradanların ictimai, ədəbi-bədii yaradıcılıqlarıdır.

**Tədqiqatın məqsədi** XIX əsrin II yarısında Azərbaycan və Türkiyədə mövcud ictimai-siyasi və mədəni mühit, həmin mərhələdə hər iki ölkədə başlanan maarifçi-ədəbi hərəkat və onun tanınmış nümayəndələrinin ədəbi fəaliyyətlərini tarixi-müqayisəli şəkildə araşdırmaqdır. Məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** yerinə yetirilmişdir:

1) Maarifçi-ədəbi hərəkatın mahiyyəti və inkişaf mərhələlərinə aydınlıq gətirilməsi;

2) XIX əsrin II yarısında Azərbaycan və Türkiyədə maarifçi-ədəbi hərəkatı və onu yaradan səbəblərin araşdırılması;

3) Azərbaycan və Türkiyə maarifçi ədəbiyyatına M.F.Axundzadə yaradıcılığının təsiri;

4) Ə.Hüseynzadə və Ə.Ağaoğlunun türkçülük ideyaları və onların Azərbaycan və Türkiyə maarifçi-ədəbi hərəkatında yeri;

5) Azərbaycanda milli mətbuatın yaranması və onun Türkiyə maarifçi mətbuatı ilə əlaqələri;

6) Türkiyədə maarifçi-ədəbi-hərəkatın İbrahim Şinasi, Namiq Kamal, Tofiq Fikrət, Ziya Paşa kimi tanınmış nümayəndələrinin Azərbaycanda maarifçi dünyagörüşünün formalaşmasına təsiri;

7) Türkiyə maarifçi-ədəbi hərəkatında "Sərvəti-fünun" ədəbi məktəbi və onun Azərbaycan milli-maarifçi mətbuatının inkişafındakı yeri.

**Tədqiqatın elmi yeniliyi** onunla müəyyən olunur ki, burada ilk dəfə XIX əsrin II yarısında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi-ədəbi hərəkat və onun İ.Şinasi, N.Kamal, T.Fikrət, Z.Paşa, A.A.Bakıxanov, M.F.Axundzadə, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi tanınmış nümayəndələrinin yaradıcılıqlarının özünəməxsus şəkildə kompleks və müqayisəli tədqiqinə cəhd edilir. Hər iki ölkədə həmin zaman kəsiyində aparılan islahatlar, maarifçilik ədəbi hərəkatı haq-

qında qarşılıqlı müqayisənin olmaması imkan yaradır ki, dissertasiya işindən elmi mənbə kimi istifadə olunsun.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada XIX əsrin II yarısında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi-ədəbi hərəkat və onun görkəmli nümayəndələrinin yaradıcılığı monoqrafik və tarixi-müqayisəli şəkildə üzə çıxarılır. Aparılmış tədqiqat XIX əsrin II yarısında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi-ədəbi hərəkat haqqında təsəvvürü xeyli genişləndirir. Tədqiqatın nəticələri elmi-nəzəri və praktik xarakterli sonrakı tədqiqatlar üçün əhəmiyyət kəsb edə bilər.

**Tədqiqatın metodoloji və nəzəri əsaslarını** XIX əsrin II yarısında Azərbaycan və Türkiyə ədəbiyyatlarında maarifçi ədəbi hərəkat və onun nümayəndələri haqqında Azərbaycan və Türk dillərində olan ədəbi-bədii materialın sistemli və tarixi-müqayisəli şəkildə araşdırılması təşkil edir. Tədqiqat işində müqayisə, təsviri və müqayisəli tipoloji təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqatın nəzəri bazası Azərbaycan və Türkiyə ədəbiyyatı tarixi, XIX əsrin II yarısında hər iki ölkədə gedən maarifçi-ədəbi proseslərin problemləri, həmçinin bu məsələlərlə məşğul olan tanınmış Azərbaycan və Türkiyə ədəbiyyatşünaslarının, tənqidçi-lərinin tədqiqatlarından ibarətdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Avropada və Şərqdə maarifçi-ədəbi hərəkat;
2. XIX əsrin II yarısında Azərbaycanda sosial-mədəni və ədəbi mühit və onun Türk maarifçi-ədəbi hərəkatında yeri;
3. Azərbaycan maarifçi-ədəbi hərəkatının təkanverici qüvvəsi, realist fəlsəfə və dramaturgiyanın banisi Mirzə Fətəli Axundzadənin yaradıcılığı və onun Türkiyə maarifçi-ədəbi hərəkatına təsiri;
4. Türkiyə maarifçi-ədəbi hərəkatında Ə.Ağaoğlu və Ə.Hüseyn-zadənin göstərdiyi xidmətlər və tutduqları yer;
5. Azərbaycan maarifçi mətbuatı H.Zərdabi "Əkinçi" qəzeti; və onun türkiyə ədəbi mətbuatına təsiri;
6. XIX əsrin II yarısında Türkiyədə sosial-mədəni və marifçi-ədəbi mühit və onun Azərbaycan maarifçi-ədəbi hərəkatında yeri;
7. Türkiyə maarifçi-ədəbi hərəkatında İbrahim Şinasi və Ziya Paşa ədəbi məktəbinin yeri və mövqeyi;
8. Türkiyə və Azərbaycan maarifçi-ədəbi hərəkatında Namiq Kamalın xidmətləri;
9. "Sərvət-i-fünun" ədəbi-məktəbi, "Sərvət-i-fünun" jurnalı-nın nəşri və onun Azərbaycan mətbuatında tutduğu yer.

**Tədqiqat işinin aprobasiyası**. Tədqiqat işinin nəticələri ilə bağlı Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi kafedrasının iclaslarında, Respublika və Beynəlxalq konfranslarda məruzələr edilmiş, bilavasitə mövzu ilə bağlı müxtəlif jurnallarda 15 məqalə çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, tədqiqat işinin obyekti və predmeti, əsas məqsədi və qarşıya qoyulan konkret məsələlər, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilir, tədqiqatın metodları və mənbələri, ilkin fərziyyəsi və müdafiəyə çıxarılan müddəalar haqqında danışılır.

I fəsil **"Maarifçi ədəbi hərəkatın mahiyyəti və inkişaf mərhələləri"** adlanır. Bu fəslin **"Maarifçilik hərəkatı, onun aparıcı ideyaları və xarakterik cəhətləri"** və **"Avropada maarifçi-ədəbi ideyaların inkişafı"** adlanan ikinci yarım fəslində XVIII əsrdə Avropanın İngiltərə, Fransa, Almaniya kimi ölkələrində maarifçi-ədəbi ideyaların inkişafı məsələlərinə toxunularaq göstərilir ki, XVIII əsr Qərbi Avropa ədəbiyyatının tarixində feodalizm əleyhinə kəskin mübarizə dövrü kimi daxil olmuşdur.

Fransız maarifçiləri daha mübariz və hərtərəfli inkişaf etmiş ideyalarla silahlanmışdılar. Onlar elmin və ictimai fikrin bir neçə sahəsində çalışan və məşhurlaşan tanınmış insanlar idilər. Qeyd etmək lazımdır ki, Russonun pedaqoji ideyaları sağlığında ikən Avropaya, o cümlədən Rusiyaya yayılmış, ona şöhrət qazandırmışdır. Almaniyada XVIII əsrdə meydana gələn maarifçilik ədəbiyyatının Fransaya nisbətən gec və zəif inkişaf etməsinin səbəbi 1618-1648-ci illərdə baş verən müharibə idi. XVIII əsrin 60-cı illərini əhatə edən ikinci mərhələdə Alman ədəbiyyatında maarifçilər ordusu yetişir.

Yarımfəsildə eyni zamanda rus maarifçiliyindən də söhbət açılaraq bildirilir ki, A.N.Radişev "Peterburqdan Moskvaya səyahət" (1790) kitabı ilə XVIII əsr maarifçiliyində inqilabi cərəyanın banisi oldu. Dekabristlər (P.Pestel, K.F.Rıleyev, V.Küxelbeker və b.) maarifçiliyi təbliğ etməyə cəhd göstərmişdilər. Rus ədəbiyyatında milli komediyanın əsasını qoyan D.İ.Fonvizin ədəbiyyata yeni məzmun, məfkurə yeniliyi ilə bərabər, bədii forma, üslub, janr yeniliyi gətirmişdir. Rusiyada ictimai fikrin oyanmasında

bədii ədəbiyyat, xüsusən, A.S.Puşkinin yaradıcılığı mühüm rol oynamışdır. Beləliklə, Maarifçilik Avropa və Rusiya mədəniyyətinin inkişafında yalnız tarixi bir mərhələ kimi deyil, həm də siyasət, iqtisadiyyat, elm, fəlsəfə və ədəbiyyatda qüvvətli ideoloji cərəyan kimi çıxış etdi. Maarifçilik dövrü fəlsəfi sahədə insanın dünyagörüşünün yenidən formalaşmasına təkan verdi. Yeni fəlsəfi dünyagörüşünün formalaşması isə kainatın yenidən kəşfini gündəmə gətirərək bu günə qədər olan bəşəri inkişaf nəzəriyyəsinin yenidən nəzərdən keçirilməsi və ona yaradıcı şəkildə yanaşılması zərurətini ortaya çıxardı.

Tədqiqat işinin **"Maarifçi ədəbi hərəkatın mahiyyəti və inkişaf mərhələləri"** birinci fəslinin "Şərq ədəbi maarifçiliyinin özünəməxsus xüsusiyyətləri" adlanan üçüncü yarımfəsli Şərqdə maarifçi-ədəbi hərəkatın yaranma səbəblərindən və yalnız ona xas olan cəhətlərindən söhbət açılır. İslam Şərqində və Qərbdə fəlsəfi düşüncənin ideya xəttinin inkişafına və strukturuna nəzər salınır. Yarımfəsildə İran, Hindistan, Misir kimi Yaxın Şərq ölkələrində, Çin, Koreya, Yaponiya kimi Asiya ölkələrində maarifçilik cərəyanı və maarifçilik ədəbiyyatı haqqında məlumat verilir. Eyni zamanda XIX əsrdə İranda azərbaycanlılar arasında milli ideologiyanın formalaşmasında mühüm rol oynayan ziyalılardan biri olan Cəmaləddin Əfqaninin fikir və düşüncələri ifadə olunur. Onun milli-ideoloji görüşlərinin formalaşmasında Türkiyə mühiti çox böyük rol oynamışdır. Sultan Əbdülhəmid tərəfindən 1892-ci ildə Türkiyəyə dəvət edilən Cəmaləddin Əfqani 1897-ci ilə qədər burada yaşayır. “Cəmaləddin Əfqani başqa din xadimlərindən fərqli olaraq tərəqqinin, təkamülün əsasını elmdə görür və deyirdi: "Dünyanın sultanı həmişə elm olmuş, elmdir və elm olaraq qalacaqdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Türküstanda maarifçilik hərəkatı geniş vüsət almağa başladı. İmperiya işğalı və nəticədə aparılan assimilyasiya Türküstanı tarixi qüdrətindən uzaqlaşdırmış, müti və asılı vəziyyətə salmışdı. Türk toplumunun inkişafına xitam verəcək bir hərəkata ehtiyac duyulurdu. Sistemli şəkildə ilkin olaraq M.F.Axundzadə tərəfindən XIX əsrin 50-ci illərində Azərbaycanda maarifçi hərəkat başladı.

Beləliklə, Şərq dünyası əsrlər boyu fərdi “mən”in kamilləşməsi yollarını axtarmış, dünyanı naqislikdən xilas etmək və mütləq varlığa yaxınlaşmağın yollarını, vasitələrini axtarmışdır. Şərqi dəyərləndirmək üçün məhz milli-mənəvi, etno-tarixi baxış, Şərq təcrübəsinin nəzərə alınması vacibdir. Şərqin “insana yanaşması” daha dərindir. Şərq daim öz dərin zəkası ilə həyatın dərinliklərinə baş vuraraq, insanı dərk etməyə çalışıb. Biz

bu istiqamətdə nailiyyətlərimizin nə qədər cüzi olduğunu, Şərqin isə insanın mənəvi aləminə nüfuzunun nə dərəcədə dərin olduğunun hər addımda şahidi oluruq"[1].

Tədqiqat işinin ikinci fəsli **"XIX əsrin II yarısında Azərbaycanda sosial-mədəni və ədəbi mühit və Türkiyə maarifçi ədəbi hərəkatı"** adlanaraq dörd yarımfəsildən ibarətdir.

**"Azərbaycan maarifçi realist ədəbiyyatı və onu doğuran səbəblər"** adlı birinci yarımfəsildə Yaxın Şərqin ən qədim tarixə və zəngin ədəbi-mədəni keçmişə malik olan Azərbaycanda maarifçilik ədəbiyyatı və onu ərsəyə gətirən, ictimai-siyasi səbəblər, mövcud mühit haqqında məlumat verilir. Burada Azərbaycan ədəbiyyatı XIX əsr müstəvisində icmal şəklində nəzərdən keçirilir. M.F.Axundzadə tərəfindən əsası qoyulan ənənələrin Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov kimi qabaqcıl ziyalıların davam etdirilməsi bildirilir və onların ədəbi-maarifçi fəaliyyətləri haqqında məlumat verilir.

Tədqiqat işinin ikinci fəslin **"M.F.Axundzadənin maarifçi-ədəbi fəaliyyəti və Türkiyə maarifçilik ədəbi hərəkatında yeri"** ikinci yarımfəslində Azərbaycan ədəbiyyatı, mədəniyyəti və fəlsəfi fikri tarixində mühüm rol oynamış böyük mütəfəkkir M.F.Axundzadənin yaradıcılığında maarifçilik ideyaları təhlil olunur. M.F.Axundzadənin elmi irsi çoxşaxəli və dərindir. Məhz buna görə də onun tarixə, ictimai hadisələrə münasibətini dövrün ictimai-siyasi durumundan çıxış edərək dəyərləndirmək lazımdır.

Bu yarımfəsildə M.F.Axundzadənin mövzusunu sadə xalq həyatından götürmüş olduğu “Hekayəti-Molla İbrahimxəlil kimyagər” (1850), “Hekayəti-Müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadükuni-məşhur” (1850), “Hekayəti-xırsı-quldurbasan” (1851), “Sərgüzəşti-vəziri-xani Lənkəran” (1851), “Sərgüzəşti-mərdi-xəsis” (“Hacı Qara”, 1852), “Mürafiə vəkillərinin hekayəti” (1855) adlı komediyalarında dramaturq kimi maarifçilik ideyaları araşdırılmışdır. Onun bədii-fəlsəfi yaradıcılığında mühüm yer tutan "Kəmalüddövlə məktubları" adlı əsəri də təhlil olunmuş və artıq bir filosof kimi M.F.Axundzadənin maarifçilik fəaliyyəti haqqında söhbət açılmışdır.

XIX əsrin 60-cı illərində Türkiyənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələri nəzərdən keçirdikdə Azərbaycan mütəfəkkirinin maarifçilik ideyalarının nə kimi əhəmiyyət daşıdığını daha qabarıq şəkildə görmək mümkündür. Uzun əsrlər boyu azərbaycanlıların istifadə etdikləri

[1] Müasir ədəbiyyatşünaslıqda Şərq-Qərb-www.tekedergisi.com

ərəb əlifbasının dəyişdirilməsinin bütün Türk dünyası üçün nə qədər vacib olduğuna inanan M.F.Axundzadə bütün Türk xalqlarının cəhalət və fanatizmə qarşı mübarizəsini eyni istiqamətə yönəltmək arzusunda idi. Mirzə Fətəlidən əvvəl əlifba islahatı ilə bağlı Türkiyədə Xoca Təhsin Əfəndi, Əhməd Cövdət Paşa, Münif Paşanın təklifləri olsa da, bu məsələni həyata keçirməyə onların cəsarəti çatmadı. M.F.Axundzadə isə öz cəsarətli addımı ilə bir inqilab yaratdı. 1863-cü ildə Türkiyə və İranın hakim dairələri bu islahatı qəbul etmək istəməsələr də, 1928-ci ildə Mustafa Kamal Atatürk tərəfindən diqqətsiz qalmadı. 1 noyabr 1928-ci ildə Mustafa Kamalın rəhbərliyi və nəzarəti ilə hazırlanan Türk Əlifbasının əsasını təşkil etdi. Çox fəxrlə söyləmək lazımdır ki, bu gün Türkiyə Respublikasında türk nəslinin gələcəyi olan uşaqlar məhz həmin islahata əsaslanan əlifbadan istifadə edirlər. Mirzə Fətəli Axundzadənin Türkiyənin Londonda sürgün həyatı keçirən Gənc Türklər hərəkatına da böyük təsiri oldu. Türk maarifçilik ədəbi hərəkatının aparıcı nümayəndəsi, o zamanlar hələ gənc olan Namiq Kamal da bu mübahisəyə qoşuldu. M.F.Axundzadənin maarifçi, islahatçı görüşləri onun dünyagörüşünün formalaşmasında mühüm rol oynadı.

“Mirzə Fətəli Axundzadə ədəbi irsini və maarifçilik fəaliyyətini yüksək qiymətləndirən tanınmış Türk alimi F.Köprülüzadə yeni ədəbi cərəyanın bir qədər sonrakı dövrlərinə nəzər salaraq, M.F.Axundzadənin ən qüvvətli ardıcıllarından olan Nəcəf bəy Vəzirov başda olmaqla, Əbdürrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Süleyman Sani Axundov, Nəriman Nərimanov kimi Azərbaycan yazıçıları tərəfindən bu ədəbi məktəbin qələbə və təntənəsini qeyd edir.

O, Azərbaycanda maarifçilik hərəkatını başlamaqla kifayətlənmədi, eyni zamanda bu dünya üçün önəmli olan bir çox şəxsiyyətlərin yetişməsinə kömək etdi. Ziya Gökalpa Türkçülüyü aşılayan, "Türkləşmək, islamlaşmaq, avropalaşmaq" ideyasının banisi olan Əli bəy Hüseyzadəni maarifçilik hərəkatına gəlməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki, Əli bəyin babası Şeyx Əhməd Səlyani M.F.Axundzadə ilə yaxın dost idi. Onların təsiri altında böyüyən Əli bəyin təhsil alacağı məktəbi də məhz M.F.Axundzadə müəyyənləşdirmişdi. Bu dahi insanın xidmətlərini heç vaxt unutmayan Əli bəy Hüseynzadə gələcəkdə onu Qafqaz Türklərinin Molyeri kimi dəyərləndirdi.

Beləliklə, M.F.Axundzadəyə qədər Şərq düşüncə tərzindən ayrıla bilməyən maarifçi ziyalılar M.F.Axundzadənin yaradıcılığı ilə Qərb düşüncə tərzinə daxil oldular. Onun əsərləri və yaradıcı fəaliyyəti ictimai, siyasi,

ədəbi, bədii, fəlsəfi, mədəni və kulturoloji sahələrə yenilik gətirdi. O, milli mənlik şüurunun formalaşmasında əvəzsiz rol oynadı və Qərblə Şərq arasında milli birlik ideyalarını yaydı.

İkinci fəslin **"Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadənin Türkiyə maarifçi-ədəbi hərakatındaki yeri"** adlanan üçüncü yarımfəslində Azərbaycanda türkçü milli ideologiyanın daha da inkişaf etdirilməsində, milli "mən"lik düşüncə-tərzinin aşılanmasında mühüm rol oynayan Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadənin Azərbaycan və ümumilikdə Türk dünyası üçün mühüm bir başlanğıc olan maarifçi-ədəbi hərəkatına göstərdikləri xidmətlərdən danışılır. Əhməd bəy Ağaoğlunun Paris həyatında Əhməd Rıza Bəy, Doktor Nazım Bey, Bahaddin Şakir kimi Türk ədibləri ilə tanışlığı onu ideologiya baxımından Türkiyə ilə daha sıx bağlayır. Altı illik Paris həyatı onun sonradan bir maarifpərvər kimi formalaşmasında mühüm rol oynayır. Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsili inkişafından keçdiyini bildirirdi. Ağaoğlu Ahmet bəy həm Türkiyədə, həm də Azərbaycanda iki fərqli Türk dövlətinin parlamentində işləyən tək millət vəkilidir. Türkiyədə, yəni konstitusiya və Atatürk inqilablarının hazırlanmasında çox böyük zəhməti olmuşdur.

Azərbaycanda milliyyətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynayan insanlardan biri də Əli bəy Hüseynzadə idi. O, XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan-Türkiyə ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri sayılır. Rusiya imperiyasının paytaxtındakı ictimai-siyasi təlatümlərlə əlaqədar olaraq Ə.Hüseynzadə Türkiyəyə, İstanbula gəlir. Ədibin əsərlərinin təhlili göstərir ki, onun dünyagörüşünün formalaşmasında təhsil aldığı və ilk siyasi mücadilələrini davam etdirdiyi Türkiyə mühiti böyük rol oynamışdır.

Ədib M.F.Köprülü ilə birlikdə 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir. Onun qurultayda etdiyi "Qərbin iki dastanında türk" adlı məruzəsi həmin il Bakıda eyni ad altında kitab kimi çap olunmuşdur. M.F.Axundzadədən sonra "Azərbaycan mədəniyyəti tarixində "Qərb-Şərq sintezinin müəllifi Əli bəy Hüseynzadə olub.

İkinci fəslin **"Azərbaycan maarifçi mətbuatı və onun Türkiyə ədəbi mətbuatına təsiri"** adlı dördüncü yarımfəslində isə bütün türk dünyasında XIX əsrin II yarısından etibarən başlayan milli-mənəvi oyanış prosesində Azərbaycan mətbuatının yaranma tarixi və onun Türk ədəbi mətbuatına göstərdiyi təsir işıqlandırılır. Burada eyni zamanda Azərbaycanda maarifçi dünyagörüşünün və maarifçilik cərəyanının ərsəyə gətirdiyi və elə

bu qabaqcıl baxışların inkişafında və yayılmasında mühüm rol oynayan Azərbaycan mətbuatı, onun ilk qaranquşu olan "Əkinçi" qəzeti və bu qəzetin nəşrinə başlamaqla Azərbaycanda milli mətbuatın əsasını qoymuş Həsən bəy Zərdabi haqqında məlumat verilir.

Televiziyanın, internetin, mobil telefonların olmadığı bir dövrdə qəzetçilik çox böyük və çətin bir iş idi. Qəzetin vasitəsilə həmin ölkələrdə gedən milli-siyasi proseslər, hər bir azərbaycanlıya hələ uzaq olan dövlətlər və xalqlar haqqında məlumat verilirdi. Türkiyədə də maarifçi hərəkatda yeniliklər vardı. İstanbul maarifçi-ədəbi hərəkatının bir çox tanınmış nümayəndələri Rusiyada yaşayan Türk xalqlarının mətbuatını izləyir, orada çıxan dövri nəşrlərə məqalələr göndərirdilər. Türkiyədə fəaliyyətə başlayan bir çox jurnal və qəzetlər də Rusiyada çapa başlayan mətbu nəşrlərindən iqtibaslar edirdilər. Rusiyadakı türklərin Türkiyə mətbuatına göndərdikləri məqalələr, məktublar xalq arasında yayılırdı. İstanbulda “Sır'atı Müstakim”, “Türk Yurdu”, “İkdam”, Krımın Bağçasaray şəhərində “Tərcüman”, Bakıda “Həyat”, “Şəlalə, “Füyuzat”, “İrşad” kimi ədəbi jurnal və qəzetlər bu təmayülü açıq-aşkar dəstəkləyirdilər. “Əkinçi”nin davamçıları olan bu nəşrlər Azərbaycanın ədəbi və siyasi oyanış tarixində önəmli bir dövr açmağa müvəffəq olmuşdur.

Tədqiqat işinin üçüncü fəsli **"XIX əsrin II yarısında Türkiyədə sosial-mədəni və marifçi ədəbi mühit"** adlanaraq, Türkiyə maarifçiliyinin adı çəkilən dövrdə "Türkiyədə maarifçi-ədəbi hərəkatın meydana gəldiyi tarixi şərait", "Türkiyə maarifçi-ədəbi hərəkatında İbrahim Şinasi və Ziya Paşa ədəbi məktəbi", "Türkiyə və Azərbaycan maarifçi-ədəbi hərəkatında Namiq Kamal", "Sərvəti-fünun” ədəbi-məktəbi və onun Azərbaycan mətbuatında tutduğu yer" adlı dörd yarımfəsildə araşdırılması aparılmışdır.

Birinci yarımfəsildə bildirilir ki, Türkün qərbləşməsi prosesi, Tənzimat dövründə dövlətin əsasını qoyduğu siyasi, iqtisadi və mədəni təməllər genişlənmiş və günümüzə gəlib çatmışdır. Bu inkişaf istiqamətləri müasir dövrümüzdə davam edən və “Qərb modernləşməsi”, “Gecikmiş modernləşmə” kimi adlandırılan prosesdir. Türk insanının düşüncə-tərzinə və əqidəsinə görə Avropa mədəniyyətində əsası qoyulan və müasirləşmə ideyasının Türkiyədə davamı olan Qərbçilik düşüncəsi-maarifçilik hərəkatı milli adət-ənənələrin qorunub saxlanılmasına xidmət etməli idi. Türkiyə bu gün həmin dəyərləri saxlamaqla, yalnız Şərqin deyil, Qərbin də ən müasir dövlətlərindən biri kimi inkişaf etməyə, dünyanın həm Şərqdə, həm də Qərbdə öz sözünü söyləməyə çalışır.

Tədqiqat işinin üçüncü fəslinin **"Türkiyə maarifçi-ədəbi hərəkatında İbrahim Şinasi və Ziya Paşa ədəbi məktəbi"** adlı ikinci yarımfəsli İbrahim Şinasi və Ziya Paşanın Türkiyə maarifçi-ədəbi hərəkatında göstərdikləri xidmətlərə, onların Azərbaycan ədəbiyyatının inkişafına göstərdiyi təsirə aydınlıq gətirilir. İbrahim bəy Türkiyə maarifçi mətbuatının ilk qaranquşlarından hesab olunurdu. O, sanki Türkiyədən Qərbə doğru açılmış bir pəncərədir. Onun yaradıcılığında diqqəti cəlb edən əsərlərdən biri də "Şair evlənməsi"dir (1859). "Şair evlənməsi" komediyasında məişət problemləri daxilində cəmiyyətdə mövcud olan ziddiyyətlər özünü göstərir. Müəllif burada zahirən adi, daxilən ciddi problemləri yığcam şəkildə verə bilmiş, dövrün, cəmiyyətin ziddiyyətlərinə müdaxilə etmişdir. İbrahim Şinasini Azərbaycan ziyalılarına ədəbiyyatşünas və tənqidçi Abdulla Sur tanıtmışdır. 1910-cu ildə çap etdirdiyi "Türk ədəbiyyatına bir nəzər" adlı əsərində Türk ədəbiyyatının bir çox nümayəndələri ilə yanaşı İ.Şinasiyə də münasibətini bildirmişdir. Eyni zamanda Qərb tərzində yazılan ilk dram əsəri olan "Şair evlənməsi"ni Azərbaycan dilinə tərcümə etmişdir. O, İ.Şinasini yeni ədəbiyyatın qurucusu olaraq dəyərləndirmişdir. A.Sura görə "...Şinasinin böyüklüyü şairliyindən deyil, bir çox əsrlərdən bəri inkişaf etmiş əski şeir tərzini kökündən sarsıtmış olmasındadır. Ədəbi cərəyanı Avropa zövqünə və şeirə təbii şəkil vermək kimi xidməti göstərməsindədir"[2].

Türkiyə ədəbiyyatının avropameylli nümayəndələrindən biridə Ziya Paşadır. "Ziya Paşanın yaradıcılığı zəngin müşahidə, yaşadığı həyat hadisələrinə kəskin müdaxilə və real münasibət, bir sıra əsərlərində gözəl ifadə vasitələri baxımından Türkiyə ədəbiyyatında əhəmiyyətli yer və müəyyən mərhələ təşkil etməkdədir"[3]. Ziya Paşa Qərbləşmə tərəfdarı olan Namik Kamal və İbrahim Şinasi ilə birlikdə yeni Türkiyə ədəbiyyatının əsasını qoydu. Yusif Akçura Şinasini dil və ədəbiyyat sahəsində türkçülüyü ilk dəfə sezən osmanlı türkü kimi qəbul edir.[4] Qeyd etmək lazımdır ki, o, Azərbaycan satiriklərinə ideya və ruhən çox yaxın idi. Məsələn, Azərbaycan ədəbiyyatının inqilabçı şairi Mirzə Ələkbər Sabir üçün bir məktəb rolunu oynaya bilmişdi. Ziya Paşanın "Tərkibi-bənd", "Tərcibənd"i Sabirin satiralarını yazarkən tez-tez bu janra müraciət etməsinə səbəb

---

[2] Akpınar Y. Azeri Edebiyatı Araştırmaları. İstanbul: Dergah Yayınları, 1994, s.308.

[3] Aydın A.A. Türkiyə ədəbiyyatı tarixi: müqayisəli dərslik. C.II. h.I. Bakı: Bakı Universiteti, 2007, s.110

[4] Abdullayeva T.M. Azərbaycan ədəbi fikrində Qərbçilik meylləri: XX əsrin əvvəlləri. Bakı: Avropa, 2014, s.47

olmuşdu. Sabirin "Naəhl olana mətləbi andırmaq olarmı?" şeirində Ziya Paşanın poeziyasından istifadə olunmuşdur. Ziya Paşanın "Əvvəl yox idi iş, bu təzə çıxdı" misralarına əsaslanan Sabir digər bir şeirində "Bizlərdə yox idi belə adət-yeni çıxdı" söyləyir. Salman Mümtazın yaradıcılığında da Ziya Paşanın təsiri hiss olunmaqdadır

**"Türkiyə və Azərbaycan maarifçi-ədəbi hərəkatında Namiq Kamal"** üçüncü yarımfəslində isə göstərilir ki, Türkiyə maarifçilik ədəbiyyatının banilərindən biri sayılan Namiq Kamal İbrahim Şinasının yaradıcılıq yolunu davam etdirən və fikirlərini təbliğ edən ziyalılardan, Türk ədiblərindən biri olmuşdur. Onun dramaturgiyası özünün daxili ideya məzmunu, vətənpərvərlik və qəhrəmanlıq pafosu, zəngin üslubu baxımından Azərbaycan teatrının ideya-bədii və estetik mahiyyətinə, yaradıcılıq istiqamətinə, janr, üslub və forma axtarışlarına tamamilə uyğun idi. Bu pyeslər Azərbaycan teatrının ümumi yaradıcılıq inkişafına müsbət təsir göstərdiyi kimi, səhnə ustalarımızın janr və üslub axtarışlarına da yardımçı olmuşdur. Onun qələmindən altı pyes və iki roman çıxmışdır.

Azərbaycan ədəbiyyatında inqilabçı satiranın banisi sayılan Mirzə Ələkbər Sabir Namiq Kamalı türk klassikləri arasında birinci şair kimi qiymətləndirmişdir. Sabirin "Fəxriyyə" şeirinin də Namiq Kamal yaradıcılığının təsiri altında yazıldığı görülür. XIX əsrin sonları və XX əsrin əvvəllərində digər türk xalqları kimi Azərbaycanlıların da fikir, din və ədəbi həyatında Namiq Kamalın təsirini görə bilərik. "Namiq Kamal Azərbaycanda əsərləri çox yayılan və sevilən şairlərdən idi. Onun zülm, istibdad əleyhinə, azadlıq uğrunda mübarizəyə həsr olunmuş əsərləri xüsusilə geniş yayılmışdı.

Üçüncü fəslin dördüncü yarımfəsli **"Sərvəti-fünun” ədəbi-məktəbi və onun Azərbaycan mətbuatında tutduğu yer"** adlanır. Yarımfəsildə bildirilir ki, XIX yüzillikdə iki yüzə qədər qəzet və jurnal nəşr olunmuşdur. 1831-ci ildə rəsmi dövlət qəzeti olaraq çıxan “Təqvim-i Vekayi-i”dən sonra ilk özəl Türkçə qəzet 1840-cı ildə ingilis Cörçil tərəfindən çıxarılmış “Cərideyi Həvadis”dir. Onun 1861-ci ildə “Tərcümani Əhval” ardından isə “Təsvir-i Əfkar” izləməkdədir. 1860-cı ildən sonra qəzetlərin sayında sürətli artım yaşanmışdır. Azərbaycanda Tofiq Fikrətə maraq XIX əsrin sonlarından başlamışdır. Onun "Məlumat", "Sərvəti-fünun" və digər dövri mətbuat orqanlarında nəşr edilmiş şeirləri XIX əsrin 90-cı illərində Azərbaycan ziyalıları tərəfindən maraqla qarşılanmışdır. Onun ilk şeirlər toplusu olan "Rübabi-şikəstə" əsəri 1900-cü ildə İstanbulda nəşr edilmiş və tezliklə Azərbaycanda yayılmışdır. Onun yaradıcılığı ilə oxucuları daha

yaxından tanış etmək məqsədilə "Füyuzat", "Şəlalə", "Birlik", "Övraqi-nəfisə" kimi jurnal və qəzetlərdə şairin bir sıra şeirləri dərc edilmişdir. Tofiq Fikrətin qabaqcıl fikirləri Məhəmməd Hadi, Abdulla Şaiq, Hüseyn Cavid, Abbas Səhhət kimi şairlərin yaradıcılığına ciddi təsir göstərmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatda əldə edilmiş elmi qənaətlər təqdim olunmuşdur:

1. XIX əsrin sonlarından etibarən Azərbaycan ədəbi-ictimai fikrində tez-tez Türkiyə mövzusu səslənməyə başlayır. Bu isə ondan irəli gəlirdi ki, milli mənlik şüuru formalaşmağa başlayır və xalqlar öz müqəddəratlarını müəyyən etmək məqsədilə güclü bir arxaya sahib olmaq istəyirdilər. Belə bir şəraitdə türk xalqlarının Osmanlı Türkiyəsinin ictimai-siyasi həyatı ilə yanaşı, maarif və mədəniyyətinə, ədəbiyyatına olan marağı artmışdı.

2. Türkiyədə Ziya Gökalp tərəfindən səslənən "türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)" ideyası həyatın bütün sahələrinin əsas ideyasına çevrildi. Daha sonra da müəyyən oldu ki, bu fikir Ziya Gökalpın deyil, onun fikir və düşüncə müəllimi Əli Bey Hüseyinzadənin fikridir. O Füyazat adıyla çap olunan jurnalda belə deyir: "Bize fədai lazımdır: Türk xasiyyətli, islam etiqadlı, avropa qiyafətli bir fədai" Ziya Gökalp onun fikirlərindən bəhrələnərək "türkləşmək, islamlaşmaq və müasirləşmək" fikrini irəli sürürdü. Çox maraqlıdır ki Atatürk isə bu barədə deyir: "Ətimin və sümüklərimin atası Ali Rıza Əfəndidirsə, fikirlərimin atası Ziya Gökalpdır". Əli Bey Hüseyinzadənin fikirləri Ziya Gökalpi, Ziya Gökalpın fikirleri Atatürkü, Atatürk də fikirləri ilə Türkiyəni ortaya qoymuşdur. Buradan belə bir nəticəyə gəlinir ki, bu əlaqələr sayəsində Türkiyənin fikri təməlində Əli Bəy Hüseyinzadənin təsiri böyük olmuşdur.

3. Türkiyədə tənzimat islahatları, cəhalətə, dini fanatizmə, mövhumata qarşı yönəldilmiş yeni, daha qabaqcıl ideologiyanı, maarifçilik fikrini formalaşdırdı.

4. Mirzə Fətəli Axundzadə sadəcə ana vətəni Azərbaycanda deyil, bir sıra Avropa ölkələri, Rusiya və Türkiyədə sosial və siyasi həyatının acınacaqlı vəziyyətinin həll yollarını düşünən, bu yolda özü kimi düşünənləri səfərbər etməyə gücü olan maarifpərvər xalq ziyalısı olaraq tanındı. M.F.Axundzadə zillət və zülmdən qurtuluş yolunu Rusiyaya deyil, Türkiyəyə üz tutmaqda görürdü. O, əlifba islahatı arzusu sahəsində ilk addımı atdı. Onun bu arzusu sonradan Azərbaycan və Türkiyədə həqiqətə çevrildi.

5. Şərq və Qərbin elmi-nəzəri fikri, ədəbiyyat və mədəniyyətləri arasında dialoq yaradıldı. Türkiyə və Azərbaycan oxucusu islahatçı yazarların

vasitəsilə Avropa və öz mədəniyyətləri ilə daha yaxından tanış oldu və edilən tərcümələr əsasında ana dilində onları oxumaq imkanı əldə etdi.

6. Çar Rusiyasının hakimiyyəti altındakı türk və müsəlman toplumlarında milli şüuru oyandırmağı qarşısına məqsəd qoyan "Əkinçi" türkcə ilk qəzet olaraq Türk dünyası tərəfindən böyük razılıqla qarşılandı.

7. Bu dövrü səciyyələndirən mühüm əlamətlərdən biri də onun elmliliyi idi. XVIII əsrin əvvəllərində çoxsaylı görkəmli alimlərin əməyi sayəsində klassik elmi idrakın, elmi dünyagörüşün əsası qoyuldu.

8. Maarifçilik uğrunda həm Türkiyədə, həm də Azərbaycanda maarifçilər tərəfindən atılan addımların nəticəsidir ki, Şərqdə ilk dəfə qurulan Azərbaycan dövləti və ondan sonra 29 oktyabr 1923-cü ildə Türkiyə cümhuriyyəti dövləti yarandı.

9. Əli Bəy Hüseynzadə yazır: "Türklər harada olursa olsun, istər Osmanlıda, istər Türkistanda, istər Baykal gölünün ətrafında və ya Karakurum civarında, bir-birlərini tanıyacaq və sevəcəklər". Bu gün biz Türkiyə vətəndaşı olaraq Azərbaycanda bunun şahidi oluruq.

Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük bir tarixini yaratmışlar. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Tarixin enişli-yoxuşlu yollarına diqqət yetirsək qarşı-qarşıya uzanan yardım əllərinin şahidi olarıq. Türkiyənin maliyyə sıxıntıları olduqda Kazım Qarabəkir Paşanın Azərbaycan hökumətindən yardım istəməsini dinləyən Atatürk Bakıda bolşevik hökumətinin olduğunu bilərək razılıq vermişdir. Bununla bağlı Nəriman Nərimanov Mustafa Kamal Paşaya ünvanladığı məktubunda yazırdı: "Paşam, qardaş-qardaşa borc verməz, əl tutar". O, fəxrlə "Mustafa Kamal Paşanın Türkiyəsi bizim dostumuzdur" deyir, Türkiyənin milli azadlıq savaşında qələbəsini alqışlayır, əlindən gələn yardımı edirdi.

"Naxçıvan türk dünyasının qapısıdır, onu qorumaq lazımdır" - deyən böyük Atatürkün ciddi təkidləri nəticəsində Naxçıvan Qars və Moskva müqavilələrini imzalayan dövlətlər tərəfindən Azərbaycan torpaqları kimi qəbul olunmuşdur. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Azərbaycan türklərinin ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı müxtəlif zamanlardakı münasibətlərinin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi

qəbul edilməkdədir. Bizim milli yaddaşımızın kökündə "Əsli və Kərəm", "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanlar çox mürəkkəb ictimai-tarixi bir yolla irəliləyən hər iki xalqın bir-birinə yaxın düşüncə tərzindən xəbər verir.

Mustafa Kamal Atatürkün "Dil bir körpüdür. İnanc bir körpüdür. Tarix bir körpüdür. Köklərimizə enməli və olayların böldüyü tariximizin içində bütünləşməliyiz. Onların bizə yaxınlaşmasını gözləməməliyiz. Bizim onlara yaxınlaşmamız gərəkdir" və Heydər Əliyevin "Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir" sözləri Azərbaycan və Türkiyədə uzun əsrlərin süzkəcindən keçib gələn milli oyanışın XIX əsrin II yarısında fanatizmin, zülmün, müstəmləkəçiliyin qaranlıq səmasında bir ulduz kimi parıldayan maarifçi-ədəbi hərəkatın sözün əsil mənasında düzgün ifadəsi idi.

Tədqiqat işində qoyulan mövzunun təhlili və araşdırılması göstərdi ki, istər Azərbaycanda, istərsə də Türkiyədə maarifçiliyin tarixi, onun tanınmış nümayəndələri haqqında məlumatlar qarşılıqlı şəkildə hər iki qardaş ölkənin alimləri tərəfindən demək olar ki, tədqiq edilməmişdir. Bu isə, həm azərbaycanlı, həm də türk oxucusuna maarifçilik kimi qiymətli cərəyan haqqında lazımi qədər məlumat əldə etməyə imkan yaratmır. Hal-hazırda müəyyən ədəbi nümunələr hər iki dilə tərcümə edilsə də, illər boyu yaradılmış zəngin elmi arxiv diqqətdən kənarda qalır və o, kütləviləşdirilərək öz tədqiqatçısına və oxucusuna çatdırılmır.

Aparılan tədqiqatın nəticəsində belə bir təklif irəli sürülür ki, Azərbaycan və Türkiyədə maarifçilik ədəbiyyatı və onu yaradan səbəblər, "Əkinçi" və "Sərvət-i-Fünun" kimi maarifçi mətbuat, maarifçi qardaş ədəbiyyatların tanınmış nümayəndələrinin həyat və yaradıcılığı qarşılıqlı və daha geniş şəkildə hər iki ölkədə təhlil edilsin və yalnız elmi deyil, həm də kütləviləşdirilərək Azərbaycan və türk oxucuların ixtiyarına verilsin.

Qarşılıqlı və bir-birindən qopmaz bu əlaqələrin davamı və mütəmadiliyi üçün Qardaş millətlərin yaşadığı bütün coğrafyalarda özünü dərk prosesiylə M.F.Axundzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ziya Gökalp, N.Kamal kimi ziyalıların gətirdikləri yenilikləri globallaşan dünyada qabiliyyətli, xarakterli və günümüz şərtlərini nəzərə alaraq yenidən şərh edəcək müasir maarifçilərin yetişmə zərurətini ortaya qoyur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Şərq maarifçilik ədəbiyyatı // BSU, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası. 2014, №2, s.152-156
2. Танзимат и турецкая литература XIX века // Национальный педагогический университет им.М.П.Драгоманова. Научный вестник Гилея. Киев, 2014, вып.91 (№ 12), с.338-340
3. Maarifçilik ədəbi hərəkatı və onun Azərbaycan və Türkiyə ədəbiyyatına təsiri // ADU, Dil və ədəbiyyat. Bakı, 2014, № 4, s.174-180
4. Əli bəy Hüseynzadə və Azərbaycan maarifçilik hərəkatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: BSU, 2014, №3, s.70-73
5. Namiq Kamal yaradıcılığında ictimai-siyasi ideyalar // Odlar yurdu Universitetinin elmi-pedaqoji xəbərləri. Bakı, 2014, №39, s.205-210
6. Namiq Kamal yaradıcılığında maarifçilik ideyaları // Gənc tətqiqatçıların II Beynəlxalq elmi Konfransı. Bakı, 2014, 18-19 aprel, s. 327-328
7. Hüseyn Cavid yaradıcılığında maarifçilik ideyaları // AMEA, Filologiya məsələləri. Bakı, 2014, №3, s. 367-372
8. Tofiq Fikrət və onun yaratdığı ədəbi məktəb // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU, Bakı, 2014, №2, s. 183-186
9. A.A.Bakıxanovun maarifçilik görüşləri // ADU, Elmi Xəbərlər. Bakı, 2015, №1, s.233-238
10. Müəllim hazırlama proqramları // Müəllim hazırlama siyasəti və problemləri. V Beynəlxalq Simpozium. Bakı, 30 aprel – 02 may 2015, s. 95-97
11. İbrahim Şinasi və Türkiyədə maarifçi-ədəbi istiqamət // ADPU, Xəbərlər. 2014, №4, s.268-274
12. XIX əsrin II yarısında Azərbaycan mətbuatının maarifçilik dünya görüşünün inkişafına təsiri // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika Elmi Konfransın materialları. Bakı, 2015, 7-8 aprel, s.99-101
13. Milli ədəbiyyatımız və kimliyimiz: M.F.Axundzadə və Namiq Kamal // Müqayisəli ədəbiyyat və mədəniyyət: Ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarları. VI Beynəlxalq Elmi konfransının materialları. Bakı, 2015, 27-28 noyabr, s.47-53

14. Türkiyə ve Azerbaycan aydınlanma ədəbi harekâtına karşılıklı bir bakış // Turan Strateji Araşdırmalar Mərkəzi. "Turan-SAM". Türkiyə, 2015, s.29-35

15. Просветительство в Азербайджане во второй половине XIX века // Польтавский национальный педагогический университет имени В.Г.Короленко. Филологические науки. Полтава, выпуск 20, 2015, с.57-60

**Гусеин Музаффер оглы Карахан**

# ИСТОРИКО-СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ ПРОСВЕТИТЕЛЬСКО-ЛИТЕРАТУРНОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ И ТУРЕЦКОЙ ЛИТЕРАТУРЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

## Резюме

Диссертация посвящена историко-сравнительному исследованию просветительско-литературного движения в азербайджанской и турецкой литературе во второй половине XIX века. Здесь вместе с предоставлением информации о важности просветительско-литературного движения и стадий развития, его ведущих идей и характерных сторон, в том числе о специфических особенностях литературного просвещения в Европе и на Востоке, также исследуются просветительская реалистическая литература во второй половине XIX века в Азербайджане и Турции и причины, порождающие её, исторические условия возникновения просветительско-литературного движения в этих странах.

В диссертации также рассматривается творчество М.Ф.Ахундзаде, оказавшее влияние на просветительскую литературу Азербайджана и Турции, идеи тюркизма таких азербайджанских просветителей, как А.Гусейнзаде, А.Агаоглу и их место в просветительско-литературном движении Азербайджана и Турции, создание национальной печати, обращённой у народу и освещённой светом газеты «Экинчи» в Азербайджане, о его связях с турецкой просветительской миссией печати. Нужно отметить, что наличие периодической печати помогло пропаганде в ещё более широком спектре национальных идей, нового просветительского света. На страницах этих газет и журналов могли выступить и выразить свои мысли передовая интеллигенция, любящая свою нацию, такие как А.Гусейнзаде, А.Агаев, А.Топчубашов. Дж.Мамедгулузаде, У. Гаджибеков.

В исследовательской работе освещаются творчество таких известных представителей просветительского-литературного движения в Турции как Ибрагим Шинаси, Намиг Камал, Тофиг Фикрет, Зия Паша и роль, которую играли в национальной просветительской

печати в Азербайджане и их влияние на формирование просветительского мировоззрения в Азербайджане, о роли, которую играли школа литературы «Сервети-фюнун» а просветительско-литературной движении и, продолжающее развитие в национально-просветительской печати в Азербайджане, начиная с конца XIX по начало XX вв.

Проведённое исследование достаточно широко осветило представление и просветительском литературном движении в литературе Азербайджана и Турции во второй половине XIX века. Из проведённого исследования следует, что свет просвещения не мог пройти мимо Востока, в особенности, с древних времён, и также мимо братских Турции и Азербайджана.

**Huseyin Muzaffer Karahan**

## HISTORICAL-COMPARATIVE ANALYSIS OF EDUCATIONIST – LITERARY MOVEMENT IN AZERBAIJANI AND TURKISH LITERATURES IN II HALF OF XIX CENTURY

### Summary

Dissertation was dedicated to historical-comparative analysis of educationist – literary movement in Azerbaijani and Turkish literatures in II half of XIX century. Along with information on significance and development levels of educationist – literary movement, its leading ideas and distinctive features, as well as specific feature of literary educationist in Europe and East, as well as educationist realistic literature in Azerbaijan and Turkey in II half of XIX century and reasons concerning it and historical condition, causing the educationist- literary movement in these countries have been investigated.

Moreover, information was given in dissertation about affection of creative activities of M.F.Akhundzada to Azerbaijani and Turkish educationist literature, Turkism ideas of Azerbaijani intellectuals such as A.Huseynzada, A.Aghaoghlu and their location in Azerbaijani and Turkish educationist – literary movement, creation of national press enlightened by insight of "Akinchi" newspaper in Azerbaijan and referring to public and its relations with Turkish educationist press. It should be indicated that, existence of periodical press helped extended agitation of national ideas and new light of enlightenment. Leading intellectuals loving their nation, such as A.Huseynzada, A.Aghayev, A.Topchubashov, J.Mammad-guluzada, U.Hajibayov could participate and tell their own opinions in the pages of these newspapers and magazines.

Creative works of well-known representatives of educationist- literary movement in Turkey such as Ibrahim Shinasi, Namig Kamal, Tofig Fikrat, Ziya Pasha and their affection to formation of educationist mental outlook in Azerbaijan, literary school "Sarvati-funun" in Turkish educationist-literary movement and its role in national-educationist press of Azerbaijan by continuing its development in the beginning of XX century since the end of XIX century were enlightened in research work.

Conducted research significantly expanded the notion about educationist-literary movement in Azerbaijani and Turkish literatures in II half of XIX century. As seen from conducted researches, educationist light could not pass by East, especially, Turkey and Azerbaijan, which have been fraternal since ancient times. Educationist-literary movement, playing significant role in the development of both nations, having historical, economic, social-cultural relations with each other, was mutually historical-comparatively investigated and results were revealed for the first time.

Çapa imzalanıb: 19.01.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ СЛАВЯНСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГУСЕИН МУЗАФФЕР оглы КАРАХАН**

# ИСТОРИКО-СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ ПРОСВЕТИТЕЛЬСКО-ЛИТЕРАТУРНОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ И ТУРЕЦКОЙ ЛИТЕРАТУРЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

5715.01 – Теория литературы, литературный анализ и критика
5717.01 – Литература тюркских народов

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**Баку – 2016**